**UOT 327**

# ƏRƏB-İSRAİL MÜNAQİŞƏSİNİN GENEZİSİ

**Nigar HACIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 12 yanvar 2025; çapa qəbul edilmişdir: 21 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 12th of January, 2025; accepted: 21th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *ərəb-İsrail münaqişəsi, Fələstin, İsrail, Balfur bəyannaməsi, BMT qətnamələri*

## Giriş

Ərəb-İsrail münaqişəsi XX əsrin və çağdaş beynəlxalq münasibətlər sisteminin ən mühüm və davamlı münaqişələrindən biri kimi qiymətləndirilir. Bu münaqişə yalnız regional səviyyədə deyil, eyni zamanda beynəlxalq aləmdə böyük güclərin maraqlarının toqquşduğu strateji bir ərazi olan Yaxın Şərqdə geosiyasi tarazlığın formalaşmasında həlledici rol oynamışdır. Fələstin torpaqlarında yəhudi dövlətinin yaradılması ideyası, imperialist maraqlar və sionist ideologiyanın qarşılıqlı təsiri ilə inkişaf edərək, uzunmüddətli hərbi-siyasi qarşıdurmalara zəmin hazırlamışdır.

Fələstin məsələsinin tarixi kökləri Birinci Dünya müharibəsi illərinə gedib çıxır. Bu dövrdə İngiltərənin Fələstin torpaqları üzərində həyata keçirdiyi mandat idarəçiliyi və xüsusilə 1917-ci ildə elan etdiyi Balfur Bəyannaməsi münaqişənin ilkin mərhələlərində həlledici rol oynamışdır. İngiltərə hökumətinin yəhudilərə milli yurd vəd etməsi, bölgədəki ərəb əhalisinin hüquqlarını nəzərə almadan atılmış bir addım kimi, gələcək qarşıdurmaların əsasını qoymuşdur. Bu proses çərçivəsində yəhudi köçlərinin sistemli şəkildə təşviqi və torpaq mülkiyyətinin dəyişməsi ilə yaranan sosial-iqtisadi gərginlik, ərəb və yəhudi icmaları arasında qarşıdurmaları qaçılmaz etmişdir.

Məqalədə tədqiq olunan dövr ərzində, mandat idarəçiliyinin başlanmasından İsrailin 1948-ci ildə müstəqilliyini elan etməsinə, 1967 və 1973-cü illərdə baş vermiş genişmiqyaslı müharibələrə qədər – baş verən hadisələr həm regional oyunçuların, həm də beynəlxalq güclərin aktiv iştirakçılığı ilə müşayiət olunmuşdur. ABŞ və Böyük Britaniya kimi güclərin siyasi və diplomatik dəstəyi, BMT qətnamələri, İsrailin hərbi strategiyaları və ərəb dövlətlərinin parçalanmış mövqeləri bu münaqişənin gedişatına birbaşa təsir göstərmişdir.

## 1. Ərəb-İsrail münaqişəsinin tarixi başlanğıcı

XX əsrin ən mürəkkəb və uzunmüddətli münaqişələrindən biri Ərəb-İsrail münaqişəsi hesab olunur. Münaqişənin tarixi kökləri siyasi, dini və coğrafi amillərlə bağlıdır. Müharibə İsrailin qurulmasından sonra ərəb dövlətləri və fələstinlilər arasında davam edən hərbi, siyasi və ideoloji qarşıdurmalar nəticəsində baş vermişdir. Sionizm hərəkatı və Yaxın Şərqdə dəyişən geopolitik vəziyyətlər münaqişənin əsas səbəblərindəndir.

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* nigarhajiyeva58@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.225**

Birinci Dünya müharibəsi zamanı Yaxın Şərqin müttəfiq dövlətlər arasında bölüşdürülməsi ilə bağlı danışıqlar aparılarkən, Fələstin torpaqlarında yaşayan yəhudilər müharibədə qalib tərəfdə yer alaraq, müharibədən mənfəət əldə etməyi məqsəd qoyaraq müharibəyə qoşuldular. Yəhudi liderlərindən biri Aharon Ahronson Osmanlı dövlətinin Suriya qubernatoru Camal paşaya müraciət edərək, müharibədə Osmanlıya xidmət etmək istədiklərini bildirmişdi. Bu təklifə rədd cavabı alan Ahronson ingilislərlə müttəfiq olmağı qərara almışdı. Yəhudi lider Ahronson Misirdə, general Allenbinin rəhbərliyi altında ingilis qüvvələrinin Fələstini işğal etməsinə dəstək olmaq üçün 1915-ci ildə bugünkü MOSSAD-ın təməlini təşkil edən gizli Nil Kəşfiyyat Agentliyini təsis etdi. Daha sonra – 1916-cı ildə Qahirədə Fələstin işğal planı hazırlayan ingilislərə kömək edən Ahronson, sonrasında Fələstin ərazisində yəhudi milli evinin yaradılması ilə bağlı məlumatları Londonda yaymışdır. Bu məlumat ingilislərin Fələstin siyasətinə təsir edəcək Balfur Bəyannaməsinin əsasını təşkil etmişdir. 1917-ci ildə Qəzzada on mindən çox itki verən ingilislər, fransızların ərazidə heç bir qarşıdurmaya daxil olmadan Orta Şərqdə ərazi iddialarına qarşı çıxmışdır. Süveyş kanalı ətrafında təhlükəsizliyi təmin edərək, Fələstin torpaqlarının öz nəzarəti altında olmasını fikirləşən ingilislər, Fələstində Yəhudi milli evinin qurulması fikrinə müsbət yanaşmış və yəhudiləri dəstəkləməsi nəticəsində Rusiya ilə ABŞ-dakı yəhudilərin bu iki ölkəni Osmanlıya qarşı müharibəyə təhrik edəcəyini ümid edirdi [9, s. 7-8].

Yəhudilərin Fələstində dövlət qurma planları 1917-ci ildə yeni bir mərhələyə keçid etdi. Birinci Dünya müharibəsi zamanı və sonrası yəhudilər İngiltərə tərəfindən yaradılan siyasi və coğrafi zəmində özlərinə bir yer etmək məqsədlərini güdürdülər. 1917-ci ildə bəyan olunmuş Balfur Bəyannaməsi bu istiqamətdə olduqca mühüm əhəmiyyət kəsb edirdi [13, s. 220].

Balfur Bəyannaməsi, İsrailin birinci prezidenti olacaq Haim Vaysmanın gördüyü böyük işlərin nəticəsində elan edilmişdir. Yəhudilər üçün bir vətən qurulması fikrini dəstəkləyən İngiltərə baş naziri Artur Balfur ilə yaxınlaşan Vaysman, London Sionist Təşkilatı ilə birlikdə Fələstində "Yəhudi milli evi"nin yaradılması üçün ingilislərin lazımi bütün dəstəyi göstərəcəyini bəyan edən bir mətn hazırlamışdı. İngilislər tərəfindən qəbul edilən bu mətn London Sionist Təşkilatının lideri Lord Rotşildə göndərildi [11, s. 35-64].

Balfur Bəyannaməsi 1917-ci il noyabrın 2-də İngiltərə tərəfindən qəbul edilmiş, 6 gün sonra da general Allenbi Qəzzanı işğal etmişdi. Balfur Bəyannaməsi ingilis siyasətçiləri tərəfindən təhlil olunub qəbul olunmuş, ABŞ ilə müttəfiq dövlətlərlə də müzakirə olunduqdan sonra qəbul olunmuşdur [10, s. 26].

Bəyannamənin olduqca böyük əhəmiyyət kəsb etməsinin səbəbi isə, bir Avropa dövləti tərəfindən Avropada yerləşməyən bir ərazi haqqında qərar qəbul olunması və həmin ərazidə yaşayanların varlığı diqqətdən kənar saxlanılaraq, bu ərazinin yəhudilər üçün vətən olaraq vəd edilməsi idi [14, s. 41].

Bəyannaməyə əsasən ingilislərin Fələstində qurulacaq olan yəhudi dövlətini dəstəkləməsi və bununla bağlı sionistlərə lazımi köməyin verilməsi nəzərdə tutulurdu. General Allenbi tərəfindən Osmanlıdan alınan Fələstin, 1920-ci il aprelin 24-də keçirilən San Remo konfransında Millətlər Liqası Paktının 22-ci maddəsinə əsasən İngiltərə mandatına verilmişdir [15, s. 348-349].

Balfur Bəyannaməsi elan olunduğu zaman Fələstində 600.000 ərəb, 56.000 yəhudi yaşayırdı. Bəyannamədə ərəblərin bütün hüquqlarının qorunacağı qeyd olunsa da, bəzi təzadlar özünü göstərirdi. Bəyannamə həm Fələstin torpaqlarında yəhudilərə vətən vəd edir, həm də ərəb xalqının bütün hüquqlarının qorunacağına təminat verirdi.

Fələstinin Britaniya mandatı altına keçməsi nəticəsində yəhudilərin Fələstin torpaqlarına köçü və məskunlaşması getdikcə artmağa başlamışdı. 1919-1923-cü illər

arasında Fələstinə üçüncü böyük yəhudi mühacir dalğası baş vermişdir. Bu dövrdə Fələstinə 35.000 yəhudi mühacir gələrək, Fələstindəki yəhudi əhalinin sayını 12% artırmışdır. Lakin yəhudilərə məxsus olan ümumi ərazi, Fələstin ərazisinin 3%-ni təşkil edirdi. Daha sonra 1924-1928 və 1929-1939-cu illərdə Fələstin torpaqlarına iki böyük yəhudi köçü baş tutmuşdur. Və beləliklə, ərazidə yəhudi əhalinin sayı 30% olmuş, yəhudilərin sahib olduğu ərazi payı da 30%-ə yüksəlmişdi [12, s. 44].

Gün keçdikcə yəhudi əhalisinin sayının artması Fələstində ərəblərlə yəhudilər arasında münaqişələrin yaranmasına səbəb olurdu. Yəhudi əhalisinin belə sürətlə artmasına qarşı ərəblər tərəfindən verilən sərt reaksiyalara görə İngiltərədən buraya "hüquqşünaslar" və "iqtisadçılar" adlı iki komitə heyəti göndərilmişdi. Bu heyətin buradakı üç aylıq müşahidə və araşdırma hesabatında yəhudilərin köçürülməsinin dayandırılması və yəhudilərə torpaqların satılmaması öz əksini tapmışdı [5, s. 47-48].

1930-cu ildə ingilislər tərəfindən hazırlanan "Ağ kitab" adlı hesabatda ilk dəfə ərəblər dəstəklənir, Fələstində ərəb-İsrail əməkdaşlığına əsaslanan idarəçilik təklif olunurdu. Hesabatda bölgəyə yəhudi köçləri nəticəsində torpaq çatışmazlığının baş verməsi və bunun da ərəblər arasında işsizlik probleminin yaranmasına gətirib çıxardığı öz əksini tapmışdı. Nəticə etibarilə, əraziyə yəhudi köçünün dayandırılaraq, onlara torpaq satışının sonlandırılması qeyd olunurdu. Bu hesabata yəhudilər öz etirazlarını bildirdilər. Dünya Sionist Təşkilatının rəhbəri Haim Vaysmanın vəzifəsindən istefa etməsi də bu zamana təsadüf etdi. "Ağ Kitab" adlı hesabata dünyanın bir çox yerində yaşayan yəhudilər tərəfindən olunan etirazlar, ingilisləri geri addım atmağa məcbur etdi. İngiltərənin baş naziri Ramsey Makdonald 1931-ci il fevralın 13-də H. Vaysmana, 1917-ci ildə qəbul olunmuş Balfur Bəyannaməsinə uyğun olaraq qəbul olunmuş siyasətin davam etdiriləcəyini bildirmişdir [6, s. 153]. Belə olduğu halda ərəblər tərəfindən etirazlar yüksələrkən, Britaniya mandat tərəfindən etirazlar sərt şəkildə yatırılmışdı [5, s. 54].

Fələstində yəhudilərə qarşı artan ərəb hücumlarının qarşısının alınması üçün bir sıra müdafiə təşkilatları quruldu [5, s. 47]. 1948-ci ildə İsrailin müstəqillik əldə etməsindən sonra yaradılan bu müdafiə təşkilatları hərbi güc baxımından olduqca önəmli mövqe tuturdu. 1921-ci ildə qurulan və yəhudilərin müdafiəsini edən "Xaqanah" adlı təşkilatın məqsədi siyasi orqanların və bir sıra təşkilatların sifarişi əsasında müxtəlif hadisələri həyata keçirmək idi. Təşkilatın üzvlərinə ingilis zabitləri tərəfindən təlimlər keçirilmişdi [12, s. 102]. 1948-ci il müstəqillikdən sonra təşkilatın adı dəyişərək "İsrail Müdafiə Qüvvələri" olmuşdur. Bugünkü İsrail Silahlı Qüvvələrinin təməli bu təşkilat hesab olunur [5, s. 47-48].

1929-cu ildə Fələstində baş verən ərəb qarşıdurmaları zamanı, "Xaqanah" təşkilatının bir sıra üzvləri, təşkilatın siyasi qolunun zəif olduğunu düşünərək təşkilatdan ayrılmış və 1931-ci ildə "İrqun" adlı terror təşkilatı yaratmışdılar. Daha sonra təşkilatın adı "İrqun Zvei Levmi" (Milli Hərbi Təşkilat) olaraq dəyişdirilmişdir [5, s. 48].

1939-cu ildə Fələstində bura köçüb gələn yəhudilərin sayı, ərəb əhalinin sayının yarısına bərabər idi. Bu vəziyyətə ərəblərin sərt etirazlar göstərməsi, eyni zamanda İkinci Dünya müharibəsinin başlanması ingilisləri bu ərazidə köklü dəyişikliklər etməyə vadar etmişdi. Əraziyə yəhudi köçünün qarşısının alınmasını fikirləşən ingilislər, "Ağ kitab" hesabatını rəhbər tutaraq bir siyasət yeritməyi nəzərdə tuturdular. Avropada yəhudi soyqırımı törədən faşistlərə dəstək verməyə başlayan ərəblərin bu dəstəyinə mane olmağa çalışan ingilislər, Fələstin ərazisinə yəhudi köçünü 5 il ərzində 75.000 nəfər ilə məhdudlaşdırmışdı. İngilislər Fələstində planlaşdırılan paylaşım planından imtina edərək, Fələstinin 10 il sonra tam müstəqillik əldə etməsi qərarını aldılar. Bu vəziyyət yəhudilər tərəfindən qəbul edilmədiyi halda, Avropada yaşanan yəhudi soyqırımının təsirləri və müharibə illərində ingilislərin ən böyük müttəfiqi olan ABŞ-ın hədəfinə çev-

rilməmək üçün ingilislərin bu xarici siyasətini qəbul etmək məcburiyyətində qaldılar [17, s. 168].

Faşistlərin zülmündən qaçan 200.000 yəhudinin ABŞ-a köç etməsi, ABŞ-ın diqqətini yəhudilər və Fələstin məsələsinə yönəltməsinə səbəb olmuşdu. İngilislərin strategiya dəyişdirməsindən narahat olan yəhudilər, artıq İngiltərə yerinə ABŞ-ı öz hamiləri kimi görür və ABŞ-ın kifayət qədər dəstəyini almağa başlamışdılar. ABŞ-ın Fələstinə müdaxilə etməyə başlaması, ərazidə Britaniya mandatı idarəetməsinin hüquqi statusuna heç bir müdaxiləsi olmasa da, İkinci Dünya müharibəsi nəticəsində əvvəlki gücünü itirən ingilislər, artıq Fələstindəki üstün mövqelərini itirməkdə olduqlarını düşünməyə başladılar [5, s. 25].

İkinci Dünya müharibəsi ərəfəsində ingilislərdən kifayət qədər siyasi dəstək almayan və üzünü ABŞ-a çevirən yəhudilər, müharibə ərəfəsində baş verən antisemit hərəkətləri bir siyasət vasitəsi kimi istifadə edərək, ABŞ hakimiyyətini yəhudi davasının himayəsinə almağa çalışmışdılar [19, s. 2]. Lobbiçilik fəaliyyətlərində çox müvəffəqiyyətli olan yəhudilər ABŞ-da özlərinə kifayət qədər dəstək əldə edə bildilər [8, s. 378].

Hitler Almaniyası tərəfindən törədilən yəhudi soyqırımının, ABŞ tərəfindən yəhudilərin dəstəklənməsinə Amerika ictimaiyyətində yəhudilərə qarşı böyük bir simpatiya yaratmışdı. Hitler tərəfindən həyata keçirilən qətliamların müttəfiq dövlətlər tərəfindən qarşısının alınmaması nəticəsində, xüsusilə ABŞ cəmiyyətində, həyatda qalmağı bacaran yəhudilərin tələbləri öz yurdlarında, yəni Fələstin torpaqlarında dövlət qura bilmələri üçün köməyin göstərildiyi təqdirdə, yəhudilərin ağrı və acılarının azalacağı duyğusal bir yanaşmanı ortaya çıxarırdı. Bu kontekstdə İkinci Dünya müharibəsindən sonra yəhudilərin taleyi ABŞ-a bağlı olmuşdur [2, s. 23].

1942-ci ildə Nyu-Yorkda keçirilən Dünya Sionist Təşkilatının konqresində ABŞ tərəfindən Biltmor proqramı qəbul edildi, Balfur Bəyannaməsi qüvvədə saxlanıldı, "Ağ kitab" hesabatı rədd edildi və Fələstin torpaqlarına yəhudilərin köçürülməsinə davam edilməsi qərarı alındı [18, s. 52].

İkinci Dünya müharibəsindən sonra "Xaqanah", "İrqun" kimi təşkilatlar birlikdə ingilislərə qarşı müxtəlif qanlı qətliamlar törətmişdilər [17, s. 168]. İlk əvvəl ingilislər ilə müttəfiq olan yəhudilər, zamanla dövrün tələbinə uyğun olaraq mövqe dəyişdirdilər. Beləliklə, yəhudilərin yeni strategiyası ABŞ-la yaxınlaşmaq, ABŞ-ın siyasi və diplomatik dəstəyi ilə yəhudi dövlətinin qurulmasını həyata keçirmək idi [7, s. 197].

## 2. İsrail dövlətinin qurulması

İstər ərəblər tərəfindən, istərsə də yəhudilər tərəfindən təzyiqlərə məruz qalan ingilislər, Fələstində baş verən problemləri həll etməkdə çətinlik çəkirdilər. Buna görə də bölgədəki problemlərin öz həllini tapması üçün Fələstin məsələsi İkinci Dünya müharibəsindən sonra yaradılmış Birləşmiş Millətlər Təşkilatına həvalə edilmişdi [3, s. 15]. 1947-ci ilin mayında BMT Baş Məclisinin xüsusi sessiyası Fələstin məsələsini müzakirə etmək üçün 11 dövlətin nümayəndələrindən ibarət komitənin yaradılması haqqında qərar qəbul etdi. Komissiya Fələstin məsələsini həll etmək üçün iki plan tərtib etdi. Bu planlardan birinə görə, Fələstin iki hissəyə bölünür, İsrail və ərəb dövləti yaradılırdı. Yerusəlim vahid inzibati ərazi hesab edilir və BMT-nin idarəsinə verilirdi. İkinci plana görə, Fələstin ərazisində ərəb və yəhudi əhalisini birləşdirən federativ dövlət yaradılırdı. Diskussiyaların nəticəsi olaraq, BMT-nin Baş Assambleyası 1947-ci il noyabrın 29-da üçdə iki səslə (səsvermədə 33 dövlət, o cümlədən SSRİ və ABŞ iştirak edirdi) məşhur 181 saylı qətnaməni qəbul etdi. Həmin qətnaməyə görə, Fələstin üzərində Böyük Britaniya mandatı təxirə salınır, bu ərazidə müstəqil ərəb və yəhudi dövləti yaradılırdı. Ərəb dövlətinin ərazisi 11,1 min kv. km (43%), yəhudi dövlətinin ərazisi isə

14,1 min kv. km olmalı idi. Fələstinin bütövlükdə 1 milyon 845 min əhalisi var idi ki, onlardan təşkil ediləcək ərəb dövlətində 725 min ərəb, 10 min yəhudi, yəhudi dövlətində isə 498 min yəhudi, 407 min ərəb yaşamalı idi [1, s. 129-130].

1947-ci il sentyabr ayında Fələstin torpaqlarında Böyük Britaniya mandatının idarəetməsinin sona çatdığı açıqlanmışdı [12, s. 57]. 1948-ci il yanvarın 1-də İngiltərə elan etdi ki, 1948-ci il mayın 15-də tamamilə Fələstindən çıxacaqdır. Bu açıqlamadan sonra yəhudilər və ərəblər arasındakı qarşıdurma müharibə səviyyəsinə gəlib çıxdı [20, s. 3].

Böyük Britaniya mandatının idarəetməsinin son dövrü olan 1948-ci ilin may ayında İsrail dövlətinin qurulub-qurulmayacağı yəhudilər tərəfindən müzakirə mövzusu idi. Çünki qurulacaq dövlətin ərəblər tərəfindən hücuma məruz qalması onları narahat edirdi [15, s. 299].

1948-ci il may ayının 14-dən 15-nə keçən gecə İsrail dövlətinin yarandığı elan edildi. Hökumətin rəhbəri isə ölkənin böyük siyasi xadimlərindən olan David Ben Qurion oldu. Həmin gün "İsrail dövlətinin yaranması haqqında bəyannamə" qəbul edildi. Mayın 15-də isə Ərəb Liqası dövlətləri öz qoşunlarını Fələstinə yeritdi və 1949-cu ilə qədər davam edən və tarixə "Müstəqillik Uğrunda Müharibə" kimi daxil olan müharibə başlandı. ABŞ dövlətin yaradılması haqqında elan verildikdən dərhal sonra onu de-fakto, 1949-cu il yanvarın 30-da isə de-yure tanıdı [1, s. 131].

### 3. Yaxın Şərqdə yeni münaqişə ocaqları

İsrail dövlətinin müstəqilliyi elan olunduqdan bir gün sonra ərəb dövlətləri ilə müharibə başladı. Misir, İordaniya, Suriya, Livan və İraq İsrailə müharibə elan etdi. Buna Fələstin müharibəsi də deyirlər [1, s. 132]. Müharibə zamanı ərəblərin müharibəni öz lehinə çevirməsi və sürətlə irəliləməsi nəticəsində böyük dövlətlər müharibəyə qarışmaq məcburiyyətində qaldılar. Yaxın Şərqdəki bu məsələyə BMT də daxil oldu. BMT-nin işə qarışması nəticəsində 1948-ci il mayın 29-da barışıq əldə edildi. Barışıq 1948-ci il iyunun 11-də qüvvəyə mindi. Lakin barışıq uzun sürmədi. 1948-ci il iyulun 8-də İsraillə ərəb dövlətləri arasında döyüşlər başlandı. İyulun 8-dən 18-ə qədər davam edən döyüşlərdə İsrail ərəb ölkələrinin qoşunlarına qarşı müvəffəqiyyətli hücumlar etdi ki, bu da həmin ölkələrin müdafiəyə keçməsinə səbəb oldu. İlk əvvəl İsrailin bir neçə dəfə müharibənin əvvəlində məğlubiyyətinə baxmayaraq, tezliklə onun ordusu ərəb ölkələrinin ərazisinə daxil oldu, səmərəli əməliyyatlar keçirdi. Nəticədə Fələstinin xeyli ərazisini işğal etdi. İsrail əlavə daha 6,7 min km² ərazini işğal etdi. Halbuki, bu ərazi BMT qətnaməsinə əsasən Fələstin ərəb dövlətinə aid idi. Bu məsələdə həm SSRİ, həm də ABŞ İsraili müdafiə etdilər. 1948-ci il iyulun 8-də barışıq bağlandı və bu oktyabrın 13-nə qədər davam etdi. Fələstin məsələsində BMT-də vasitəçi olan F. Bernadotun 1948-ci il sentyabrın 17-də öldürülməsi, 1948-ci il oktyabrın 15-də müharibənin yenidən başlanmasına səbəb oldu. İsrail bu dəfə digər rayonları da işğal etdi. 1948-ci il dekabrın 11-də BMT bu məsələ ilə əlaqədar ABŞ-ın təşəbbüsü ilə 194 saylı qətnamə qəbul etdi. Müharibə 1949-cu il iyulun 20-nə qədər davam etdi və İsrail dövlətinin qələbəsi ilə qurtardı. Yerusəlimin qərb hissəsi İsrailin nəzarəti altına düşdü [1, s. 132-133].

İsrailin müstəqillik əldə etməsinə qarşı reallaşan bu ilk Ərəb-İsrail müharibəsində ərəblərin uğur əldə edə bilməmələrinin bir neçə təməl səbəbi var idi. Əvvəla, ərəblər müharibəyə hazırlıqsız başlamışdılar. 65.000 nəfərdən ibarət olan İsrail ordusuna qarşı, 20.000 nəfərdən ibarət ərəb ordusu yetərli deyildi. Qərbdən dəstək alan İsrail, silah-sursatla təchiz olunmuşdu. ABŞ və BMT-nin tərəfləri atəşkəsə çağırması, ABŞ-ın İsrailə silah və hərbi yardım verməsi, ərəb ordularının qeyri-mütəşəkkil şəkildə hərəkət etməsi, neft faktorundan müharibə zamanı istifadə edə bilməmələri müharibənin İsrailin lehinə bitməsinə səbəb oldu [21, s. 311].

1967-ci ildə Misir lideri Camal Əbdül-Nasir elan etdi ki, Tiran boğazı İsrail gəmiləri üçün bağlıdır. Daha sonra digər dövlətlər üçün də boğaz bağlandı. Buna cavab olaraq İsrail 1967-ci il mayın 20-də ölkədə səfərbərlik elan etdi. İsrail sərhəddə onları gözləyən ərəb qoşunlarının sayca çox olduğunu bilirdi və buna görə işğalı gözləmək əvəzinə, qəfil hücum planı hazırladılar. İyunun 5-də Misir hava qüvvələri bazasına edilən hücum uğurlu oldu və İsrail hava üstünlüyünü əldə edərək, Misir qoşunlarını geri çəkilməyə məcbur etdi. Nəticədə bir neçə gün ərzində İsrail öz ərazisini xeyli genişləndirdi. Onun ərazisi 68,7 min km² oldu. İsrail tərəfindən İordan çayının qərb sahili, Yerusəlimin Şərq hissəsi işğal olundu, həmçinin İsrail Misirə tabe olan Sinay yarımadası və Suriyaya məxsus olan Holan təpələrinə nəzarəti öz əlinə aldı. 1967-ci il iyunun 5-də SSRİ hökuməti hərbi əməliyyatları dərhal kəsmək tələbi ilə çıxış etdi. ABŞ əvvəlcə İsraili müdafiə etdi və İsrailin təcavüzkar kimi tanınmasına qarşı çıxdı. 1967-ci il iyunun 6, 7, 9-da BMT-nin TŞ İsraildən tələb etdi ki, atəşi dərhal dayandırsın və tutduğu ərazilərdən qoşunları çıxarsın. 1967-ci il iyunun 10-da İsrailin Moskvadakı səfirinə SSRİ nota göndərərək İsraillə diplomatik münasibətləri kəsdiyini bildirdi. Həmin gün SSRİ Nazirlər Sovetinin sədri Kosıqin telefonla ABŞ prezidenti Consonla əlaqə saxladı və onu İsraili danışıqsız hərbi əməliyyatları dayandırmağa məcbur etməyə çağırdı və xəbərdarlıq etdi ki, əks təqdirdə SSRİ müşahidəçi kimi qalmayacaqdır. Bir saat 15 dəqiqədən sonra ABŞ xəbər verdi ki, İsrail hərbi əməliyyatları dayandırmağa hazırdır. Beləliklə, "Altı günlük" müharibə başa çatdı: 5-10 iyun [1, s. 153-154].

Altı gün çəkən müharibə tarixə "Altı günlük müharibə" adı ilə düşdü. BMT-nin 1967-ci il noyabr ayının 10-da atəşkəs elan etməsi ilə müharibəyə son qoyuldu. Müharibədən sonra İsrail Qəzza zolağını, Sinay yarımadasını, İordan çayının qərb sahilini, Suriyanın Holan təpələrini öz əlinə keçirdi [16, s. 44].

1973-cü il oktyabr ayının 6-da Misir və Suriya itirdikləri torpaqları bərpa etmək üçün yenidən İsrailə müharibə elan etdilər. Yəhudilərin Kipur bayramında İsrailə qarşı hücumda, İsrail tez cavab versə də, "Altı günlük" müharibəyə nəzərən böyük itkilər verdilər [12, s. 76].

Holan təpələri və Sinay yarımadasındakı qoşunlar müharibənin elə başlanğıcında geri çəkilməli oldular. Müharibənin ikinci həftəsində İsrail Holan təpələrini yenidən ələ keçirdi, Sinay yarımadasındakı Misir qoşunlarını geri çəkilməyə məcbur etdi [8, s. 128].

Bu dövrdə ABŞ-ın İsrailə hərbi köməyi, İsrailin ərəb ölkələri ilə mübarizəsində tələbatını ödəmək üçün kifayət idi. Dünya ictimaiyyəti Yaxın Şərqdə atəşi kəsmək məsələsini gündəmə gətirmişdi. ABŞ 1973-cü il oktyabrın 8-də BMT-nin TŞ-nın iclasında tələb etdi ki, ərəb ölkələri tutduqları mövqedən çəkilməlidirlər ki, atəşkəs elan edilsin. SSRİ və ərəb ölkələri buna etiraz etdilər. 1973-cü il oktyabrın 22-də BMT-nin 338 saylı qətnaməsi qəbul edildi. Bildirildi ki, 12 saatdan gec olmayaraq atəşkəs təmin edilsin. Lakin, atəşkəs elan edilsə də, 3 saat keçməmiş yenidən hərbi əməliyyatlar başlandı. Ərəb-İsrail münaqişəsi ancaq 1973-cü il oktyabrın 25-də iki fövqəldövlətin – SSRİ və ABŞ-ın fəal müdaxiləsi ilə dayandırıldı [1, s. 156].

1977-ci il iyunun 27-də ABŞ Dövlət Departamenti tərəfindən bəyanat dərc olundu. Bəyanatda Fələstin xalqına Qərb sahillərində və Qəzza bölgəsində vətən qurulması ideyası öz əksini tapmışdı. Ərəb ölkələrini məmnun edən bu bəyanat, İsrail tərəfindən isə narahatlıqla qarşılandı. Bu hadisələrdən sonra 1977-ci il oktyabrın 21-də Misir lideri Ənvər Sədat İsrailə səfər etdi, sonra isə İsrail baş naziri də Misirə səfər etdi. Ə.Sədat Qərb sahili və Qəzzada bir Fələstin dövlətinin qurulmasını təklif edərkən, İsrail fələstinlilərə muxtariyyət təklif etmişdi. Lakin bu muxtariyyət heç bir ərəb dövləti tərəfindən qəbul olunmamışdır. Bundan sonra Ə.Sədat ABŞ-a bir səfər edərək, ABŞ-ın İsraili sülh danışıqları üçün razı salmasını istəmişdir. ABŞ isə Yaxın Şərqdə sülhün bərqərar olmasının çətin olacağını, ilk növbədə Misir və İsrail arasında sülh müqaviləsinin

bağlanmasını, daha sonra Qərb sahili və Qəzza ilə bağlı müvəqqəti tənzimləmənin mümkün olacağını bildirmişdi. ABŞ-ın təklifinin Ə.Sədat tərəfindən qəbul edilməsi nəticəsində ABŞ, Misir və İsraili bir araya gətirmişdi. Misir və İsrail sülhə razılaşmış və 1978-ci il sentyabrın 17-də Ağ Evdə iki ölkə arasında razılıq əldə olundu. Nəticədə 1979-cu il martın 26-da Kemp Devid müqaviləsi imzalandı [18, s. 225].

Misir Kemp Devid müqaviləsinə uyğun olaraq İsraili rəsmən tanıdı, İsrail də ilk dəfə işğal etdiyi torpaqdan çəkilərək Sinay yarımadasını Misirə qaytardı. 29 saylı müqavilədən sonra İsrail 1980-ci il iyulun 29-da işğal etdiyi Şərqi Qüdsü ilhaq etdi və Qüdsün İsrailin vahid və bölünməz paytaxtı olduğunu bəyan etdi [4, s. 860]. O vaxta qədər ərəb ölkələri arasında İsrailə ən sərt münasibət bəsləyən dövlət Misir olduğu üçün bu vəziyyət ərəb ölkələri arasında şok effekti yaratmışdı.

**Nəticə**

Yaxın Şərqdəki geosiyasi münaqişələrin ən mürəkkəbi hesab olunan Fələstin-İsrail qarşıdurması, XX əsrin əvvəllərindən etibarən bölgədə mövcud olan siyasi, dini və sosial amillərin toqquşması nəticəsində formalaşmış və qlobal güclərin müdaxiləsi ilə daha da mürəkkəbləşmişdir. Münaqişənin tarixi kökləri Balfur Bəyannaməsi ilə qoyulmuş, Britaniya mandatı dövründə yəhudi mühacirətinin təşviqi və dəstəklənməsi isə Fələstin torpaqlarında demoqrafik və siyasi balansı dəyişdirmişdir.

İsrail dövlətinin yaradılması ilə nəticələnən bu proses, ərəb dövlətlərinin hərbi müqavimətinə baxmayaraq, beynəlxalq güclərin, xüsusilə ABŞ və SSRİ-nin birbaşa və dolayısı ilə müdaxiləsi ilə formalaşmışdır. 1948, 1967 və 1973-cü illərdə baş verən müharibələr göstərdi ki, bu münaqişə təkcə yerli səviyyədə deyil, beynəlxalq münasibətlər sisteminin də əsas mövzularından biridir.

Ərəb dövlətlərinin birgə hərbi səylərinin uğursuzluğu, İsrailin diplomatik manevrləri və ABŞ-ın hərbi-siyasi dəstəyi ilə güclənməsi, bölgədə yeni geosiyasi reallıqlar yaratdı. BMT qətnamələri və vasitəçilik təşəbbüsləri isə bu münaqişəni həll etməkdə kifayət qədər effektiv nəticələr vermədi. Kemp Devid müqaviləsi kimi sülh təşəbbüsləri qismən müsbət nəticələr doğursa da, Fələstin dövlətinin yaradılması məsələsi açıq olaraq qalmaqda davam edir.

Nəticə etibarilə, bu məqalədə araşdırılan hadisələr göstərir ki, Fələstin-İsrail münaqişəsi yalnız etnik və dini qarşıdurma deyil, eyni zamanda böyük dövlətlərin strateji maraqlarının toqquşduğu bir siyasi məkan olmuşdur. Bu səbəbdən də münaqişənin uzunmüddətli və davamlı həll yolu yalnız regional deyil, beynəlxalq razılaşmalar və balanslı vasitəçiliklə mümkündür.

**ƏDƏBİYYAT**

1. Mustafayeva S., Qurbanova Ş., Cavadova Z. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər). Dərs vəsaiti. Bakı: ADPU, 2011, 301 s.
2. Açar S. Oslo Antlaşması'ndan sonra Filistin Sorunu'nda gelişmeler ve Arap-İsrail ilişkileri/. Yüksek Lisans Tezi, Marmara Üniversitesi. İstanbul, 2006, 98 s.
3. Aras B. Filistin-İsrail Barış Süreci ve Türkiye. İstanbul: Bağlam Yayıncılık, 1997, 296 s.
4. Armaoğlu F. 20. Yüzyıl Siyasi Tarihi (1914-1980). Ankara: Türkiye İş Bankası Yayınları, 2010, 752 s.
5. Armaoğlu F. Filistin Meselesi ve Arap İsrail Savaşları. Ankara: Türkiye İş Bankası Kültür Yayınları,1991, 584 s.
6. Bozkurt C. Türk Kamuoyunda Filistin Problem. İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2008, 224 s.

7. Dursunoğlu A. Dördüncü Dünya Savaşı ve Ortadoğu. İstanbul: Anka Kitabevi, 2005, 296 s.
8. Goldschmidt A., Davidson L. Kısa Ortadoğu Tarihi. İstanbul: Doruk Yayınları, 2011, 688 s.
9. Güzel M.Ş. İsrail Devleti'nin Kuruluşuna Giden Yolda Filistin 1914-1947 // Uluslararası Strateji ve Güvenlik Araştırmaları Merkezi Ortadoğu Çalışmaları, 2012, cilt 1, s. 1-24.
10. Karaman M.L. Uluslararası İlişkiler Çıkmazında Filistin Sorunu. İstanbul: İz Yayınları, 1991, 318 s.
11. Kızıloğlu S. İsrail Devleti'nin Kuruluşuna Kadar Geçen Süreçte Yahudiler ve Siyonizmin Gelişimi // Kırıkkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2012, Cilt: 2, Sayı: 1, s. 35-64.
12. Özmen S. Ortadoğu'da Etnik, Dini Çatışmalar ve İsrail. İstanbul: IQ Kültür Sanat Yayıncılık, 2002, 387 s.
13. Pehlivanoğlu Ö. Ortadoğu ve Türkiye. İstanbul: Kastaş Yayınevi, 2004, 509 s.
14. Said E. Filistin Sorunu. İstanbul: Pınar Yayınları, 1995, 392 s.
15. Sander O. Siyasi Tarih İlk Çağlardan 1918'e. Ankara: İmge Kitabevi, 2006, 423 s.
16. Süer B., Atmaca A.Ö. Arap-İsrail Uyuşmazlığı. Ankara: ODTÜ Yayıncılık, 2006, 132 s.
17. Turan Ö. Medeniyetlerin Çatıştığı Nokta Ortadoğu. İstanbul: Yeni Şafak, 2003, 428 s.
18. Türel Y. Uluslararası Politikada Ortadoğu. Ankara: Barış Platin Kitabevi, 2009, 367 s.
19. Brady C. American Zionism and the Biltmore Conference // Readings on the Arap-Israel Conflict, 2010, pp. 157-165.
20. Cattan H. Palestine, The Arabs and Israel. London: Longman Group Limited, 1969, 288 p.
21. Jbara T. Tarikh Falasteen, Ramallah. El-Shrouk Publishers, 1998, 400 p.

***Резюме***

Нигяр Гаджиева

***Генезис Арабо-Израильского конфликта***

Статья под названием «Генезис арабо-израильского конфликта» посвящена глубокому и всестороннему анализу истоков, причин, развития и ключевых этапов арабо-израильского противостояния, которое оставило значительный след в истории Ближнего Востока в XX веке. Автор детально рассматривает политические, геостратегические, исторические и идеологические факторы, сыгравшие ключевую роль в формировании конфликта между арабами и евреями.

Особое внимание уделяется Декларации Бальфура 1917 года – официальному заявлению правительства Великобритании о поддержке создания «национального очага для еврейского народа» в Палестине. Это событие стало поворотным моментом в истории региона. В период действия Британского мандата (1920–1948 гг.) начались активные волны еврейской иммиграции в Палестину. Эти процессы сопровождались демографическими сдвигами, экономической конкуренцией и ростом напряжённости между двумя общинами.

В статье анализируются основные военные конфликты: Война за независимость Израиля в 1948 году, Шестидневная война 1967 года и Война Судного дня 1973 года. Также рассматривается роль глобальных держав – США, Великобритании и СССР – в поддержке различных сторон конфликта и оказании политического и военного влияния.

Отдельное внимание уделено дипломатическим усилиям: резолюциям ООН, переговорам и Кэмп-Дэвидским соглашениям 1978 года. В заключение делается вывод о том, что арабо-израильский конфликт – это не только этно-религиозное противостояние, но и арена глобальной геополитики. Комплексный и справедливый подход, основанный на международном посредничестве, является необходимым условием для достижения устойчивого мира в регионе.

**Ключевые слова:** *Арабо-израильский конфликт, Палестина, Израиль, Декларация Бальфура, резолюции ООН*

***Summary***

***Nigar Hajiyeva***

***Genesıs of the Arab-Israelı Conflıct***

The article titled “The Genesis of the Arab-Israeli Conflict” provides a comprehensive and in-depth analysis of the historical, political, and ideological roots of the Arab-Israeli confrontation that has shaped the Middle East throughout the 20th century and continues to influence the region today. The author delves into the complex interplay of political promises, colonial interests, religious identities, and territorial claims that fueled tensions between Arab and Jewish populations.

A particular focus is given to the 1917 Balfour Declaration, in which the British government expressed support for the establishment of a “national home for the Jewish people” in Palestine. This declaration, combined with the subsequent British Mandate from 1920 to 1948, led to successive waves of Jewish immigration into Palestine. These migrations significantly altered the demographic balance of the region, contributing to a rise in hostilities, protests, and clashes with the local Arab population.

The article explores key military confrontations, including the 1948 Arab-Israeli War, the 1967 Six-Day War, and the 1973 Yom Kippur War. It also analyzes the critical role played by global superpowers—the United States, the United Kingdom, and the Soviet Union—in shaping the trajectory of the conflict through military support and diplomatic initiatives.

The author highlights diplomatic milestones such as various United Nations resolutions and the 1978 Camp David Accords. In conclusion, the article argues that the Arab-Israeli conflict is not merely an ethno-religious dispute, but also a theater of global geopolitical competition. A lasting resolution requires sustained international engagement and a fair, multi-dimensional approach that addresses the concerns of all stakeholders.

**Key words:** *Arab-Israeli conflict, Palestine, Israel, Balfour Declaration, UN resolutions*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.